# Vakant inzibati vəzifələrə müsahibə

**Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi dövlət orqanlarında vakant inzibati vəzifələrin tutulması məqsədilə ümumi müsahibə elan edir**

Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən keçiriləcək ümumi müsahibəyə Qəbələ Rayon İcra Hakimiyyətindən aşağıda göstərilən 22 vakant vəzifə təqdim olunub.

1. Rayon icra hakimiyyəti başçısı aparatı, ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsi, şöbə müdiri (1 yer).
2. Rayon icra hakimiyyəti başçısı aparatı, Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi, şöbə müdirinin müavini (1 yer).
3. Rayon icra hakimiyyəti başçısının Həmzəli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik - nümayəndə (1 yer).
4. Rayon icra hakimiyyəti başçısının Kötüklü kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik - nümayəndə (1 yer).
5. Rayon icra hakimiyyəti başçısının Ovculu kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik - nümayəndə (1 yer).
6. Rayon icra hakimiyyəti başçısının Mirzəbəyli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, baş məsləhətçi - baş mühasib (1 yer).
7. Rayon icra hakimiyyəti başçısının Çuxur Qəbələ kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, baş məsləhətçi - baş mühasib (1 yer).
8. Rayon icra hakimiyyəti başçısının Quşlar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, baş məsləhətçi - baş mühasib (1 yer).
9. Rayon icra hakimiyyəti başçısının Yenikənd kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, baş məsləhətçi - baş mühasib (1 yer).
10. Rayon icra hakimiyyəti başçısının Böyük Pirəli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, baş məsləhətçi - baş mühasib (1 yer).
11. Rayon icra hakimiyyəti başçısının Bunud kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, baş məsləhətçi - baş mühasib (1 yer).
12. Rayon icra hakimiyyəti başçısının Laza kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, baş məsləhətçi - baş mühasib (1 yer).
13. Rayon icra hakimiyyəti başçısının Mamaylı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, baş məsləhətçi - baş mühasib (1 yer).
14. Rayon icra hakimiyyəti başçısının Nohurqışlaq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, baş məsləhətçi - baş mühasib (1 yer).
15. Rayon icra hakimiyyəti başçısının Zirik kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, baş məsləhətçi - baş mühasib (1 yer)
16. Rayon icra hakimiyyəti başçısının Aydınqışlaq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, baş məsləhətçi - baş mühasib (1 yer).
17. Rayon icra hakimiyyəti başçısının Tövlə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, baş məsləhətçi - baş mühasib (1 yer).
18. Rayon icra hakimiyyəti başçısının Böyük Əmili kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, baş məsləhətçi - baş mühasib (1 yer).
19. Rayon icra hakimiyyəti başçısının Qaradeyin kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, baş məsləhətçi - baş mühasib (1 yer).
20. Rayon icra hakimiyyəti başçısının Həzrə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, baş məsləhətçi - baş mühasib (1 yer).
21. Rayon icra hakimiyyəti başçısının Məmmədağalı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, baş məsləhətçi - baş mühasib (1 yer).
22. Rayon icra hakimiyyəti başçısının Bəyli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, baş məsləhətçi - baş mühasib (1 yer).

Ümumi müsahibədə iştirak etmək istəyən namizədlər 23 yanvar 2025-ci il tarixindən 21 fevral 2025-ci il saat 18:00-dək mərkəzin internet portalında dövlət qulluğu üzrə müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidir. Namizəd portala daxil etdiyi məlumatların və sənədlərin aktuallığını və tamlığını təsdiq etməlidir. Elan üzrə sənəd qəbulu yalnız aşağıda qeyd olunmuş Mərkəzin internet portalı vasitəsilə elektron qaydada həyata keçirilir.

# Azərbaycanda yeni virus xəbərdarlığı: metapnevmovirus HMPV nədir?

Azərbaycanın Səhiyyə Nazirliyi Çində sürətlə yayılan virusla bağlı yanvarın 6-da əhaliyə müraciət edib.

Azərbaycanın Səhiyyə Nazirliyi Çində sürətlə yayılan virusla bağlı yanvarın 6-da əhaliyə müraciət edib.

Respirator və ya tənəffüs yolları ilə bağlı olan bu virusun adı metapnevmovirusdur (HMPV).

Nazirliyin açıqlamasına görə bu xəstəlik Çinlə yanaşı, Azərbaycana qonşu olan Rusiya və Qazaxıstanda da aşkarlanıb.

Bu virusa hələlik Azərbaycanda rast gəlinməsə də, qurum əhaliyə xəbərdarlıq edərək, risk qrupuna aid insanları peyvənd olunmağa çağırıb.

**Metapnevmovirus nədir?**

Metapnevmovirus (Human MetaPneumoVirus - HMPV) qripəbənzər tənəffüs yolları xəstəliyidir.

HMPV infeksiyasına ilk dəfə 2001-ci ildə rast gəlinib.

Lakin son günlər Çində yaşı 14-dən aşağı olan uşaqlar arasında bu xəstəliyin sürətlə yayılması ilə HMPV yenidən gündəmə gəlib.

Bu virus adətən yüngül xəstəlik kimi qəbul olunsa da, pnevmoniya və bronxit kimi ağır nəticələrə də gətirib çıxarır.

Virus daha çox uşaqlar və immun sistemi zəif olan insanlar üçün təhlükəlidir.

Xəstəlik yuxarı tənəffüs yollarında inkişaf edir və digər virus infeksiyaları kimi adətən 7-10 gün ərzində aradan qalxır.

# Bələdiyyələr - yerli özünü idarəetmə

Bələdiyyə - qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır.

Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq bu qanun yerli özünəidarəni həyata keçirən bələdiyyələrin yaradılması prinsiplərini, rolunu, yerli özünüidarənin hüquqi, iqtisadi və maliyyə əsaslarını, onun həyata keçirilməsi üçün dövlət təminatlarını müəyyənləşdirir.

Bələdiyyələrin statusunun əsasları ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və ümumxalq səsverməsi ilə qəbul olunan konstitusiya ilə müəyyənləşib.

Bələdiyyələrin hüquqi statusunun Konstitusiyada təsbit edilməsi 12.11.1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında baş verib. Həmin Konstitusiyanın "Keçid müddəaları" bölməsinin altıncı hissəsinə əsasən "Bu Konstitusiya qüvvəyə mindiyi gündən Azərbaycan Respublikası yerli Xalq Deputatları Sovetlərinin səlahiyyətlərinə xitam verilir. Azərbaycan Respublikasının qanunvericiliyi yerli xalq deputatları sovetlərinə aid edilmiş səlahiyyətləri yerli icra hakimiyyəti orqanları həyata keçirir". Həmin bölmənin 7-ci hissəsinə əsasən isə "Bu konstitusiya qüvvəyə mindikdən sonra iki il müddətində yerli özünüidarə haqqında qanun qəbul edilməli və bələdiyyələrə seçkilər keçirilməlidir", yəni 1997-ci ildə ilk seçkilər keçirilməli idi.

Azərbaycan Respublikasında ilk bələdiyyə seçkiləri 12.12.1999-cu ildə keçirilmişdir. Bu seçkilərdə 74 dairə və 4.683 məntəqə seçki komissiyası yaradılmışdır. Seçkilərin təşkili ilə 90,5 min insan məşğul olmuşdur. Həmin seçkilərdə 2.667 bələdiyyəyə namizədlər qismində 35,6 min insan qeydiyyata alınmışdır.

Növbəti bələdiyyə seçkiləri 2004, 2009, 2014, 2019-cu illərdə təşkil edilmişdir.

2024-cü ildə yeni bələdiyyə islahatına start verilmişdi. Bələdiyyələr yaranan sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətlər nəzərə alınmaqla Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə digər bələdiyyələrlə birləşdirilir.

Əhalisinin sayı 3000 nəfərdən və ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələrin yaradılmasına onlarda yaranan sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətlər nəzərə alınmaqla yol verilir

Doğrudur, bələdiyyələr müstəqil fəaliyyət göstərən orqan olsalar da, ancaq onlara verilən bu müstəqillik bələdiyyələrin dövlət və vətəndaş nəzarətindən kənarda qalması kimi başa düşülmür. Bələdiyyələr yerli əhəmiyyətli sosial-iqtisadi məsələlərin həllinə bilavasitə cavabdehdirlər.

Bələdiyyələrin əraziləri və torpaqları haqqında Azərbaycan Respublikasının qanununun 9-cu bəndində deyilir ki, bələdiyyə mülkiyyətində olan torpaqlara sahiblik, habelə onlardan istifadə edilməsinə dair sərəncam verilməsi sahəsində idarəetmə mülki və torpaq qanunvericiliyinin habelə "Şəhərsalmanın əsasları haqqında" və "Memarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunlarının tələblərinə və bələdiyyənin nizamnaməsinə uyğun həyata keçirilir.

Bələdiyyələrin əsas gəlir mənbəyi hesab olunan yerli vergi və ödənişlərdir. Bələdiyyələrin mülkiyyət hüququ tanınmalıdır. Bələdiyyələrin yığım imkanı torpaq və əmlak vergisindən formalaşır. Ona görə də bələdiyyələrdə xidmətin sayı da çoxaldılmalıdır. Özünüidarə orqanları inkişaf etdirilməlidir. Bələdiyyələrin sayının azaldılması ilə bərabər onun səlahiyyətlərinin artırılması, təsərrüfat imkanlarının genişləndirilməsi prosesi paralel aparılmalıdır.

Bələdiyyələrin yenidən formalaşmasını nəzərə alaraq onların sayı azaldılır. Kiçik bələdiyyələr öz təsərrüfat imkanlarını qura bilməkdə çətinliklərlə üzləşdiyi üçün onların birləşdirilməsi vacibdir.

Qəbələ rayonunda 2024-cü ilə kimi 29 bələdiyyə fəaliyyət göstərmişdir. 29 yanvar bələdiyyə seçkilərindən sonra rayonumuzda artıq 12 bələdiyyə fəaliyyət göstərəcək və kiçik bələdiyyələr birləşdiriləcəkdir.

**Bibixanım İSAYEVA.**

# Qış üçün ən faydalı bitki çayı



Kəklikotu bitkisi üzərində aparılan tədqiqatlar bu bitkinin mikrob öldürücü təsirini göstərir. Antioksidant xüsusiyyətlərə malik kəklikotu gücləndirici, iltihab əleyhinə, ağrı kəsici, bəlğəmgətirici, immuniteti gücləndirən, mikroorqanizmləri öldürən təsirə malikdir.




# QƏBƏLƏ qəzetinə

**2025-ci ilin birinci yarısı üçün abunə yazılışı davam edir.**

**Yarımillik abunə qiyməti 20 manatdır.**

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.


# İTMİŞDİR

Qəbələ rayon Zarağan kənd sakini **Mürsəlov Kənan Cümşüd oğluna** məxsus Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsi tərəfindən verilmiş **hərbi bilet itdiyi üçün** etibarsız sayılır.

Qəbələ şəhər sakini **Qurbani Kamil Abdusalam oğluna** məxsus **orta təhsil haqqında attestat itdiyi üçün** etibarsız sayılır.


Redaktor
Azad Məmmədov.

*TƏSİSÇİ:*
Redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 900*